**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydalarının təsdiq edilməsi haqqında” 2002-ci il 29 may tarixli 87 nömrəli və “Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 2011-ci il 13 yanvar tarixli 5 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002,   5, maddə 324) ilə təsdiq edilmiş “İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydaları”nın 9-cu hissəsi aşağıdakı redaksiyada verilsin:

“9. İnteqrasiya təlimli təhsil müəssisələrinin xüsusi təhsil üzrə tədris proqramlarını uğurla mənimsəyən şəxslər psixoloji-tibbi-pedaqoji komissiyanın qərarı ilə həmin müəssisənin ümumtəhsil sinfinə və ya digər ümumi təhsil müəssisələrinə köçürülə bilərlər.”.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011,   1, maddə 58; 2012,   1, maddə 34,   10, maddə 1007; 2014,   10, maddə 1329; 2015,   12, maddə 1562; 2016,   7, maddə 1351,   10, maddə 1717; 2017,   4, maddə 612,   12 (II kitab), maddələr 2519, 2535; 2018,   5, maddə 1144,   11, maddə 2429; 2019,   12, maddə 2099; 2020,   2, maddələr 211, 216,   3, maddə 350) ilə təsdiq edilmiş “Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi”nin 11.2-ci bəndində “medalların” sözü “nişanların” sözü ilə əvəz edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 14 iyun 2021-ci il
171